# AZƏRBAYCAN RESPUBLİKASININ
# MALİYYƏ MONİTORİNQİ XİDMƏTİ

AZ 1014, Bakı şəhəri, Bül–Bül prospekti 40, Tel: (+99412) 598-19-46, Faks: (+99412) 493-03-88, Elektron poçtu: office@fiu.az

"28" yanvar 2021 il — №MMX-X/b-3/7/027/2021

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatasına**

*17.12.2020-ci il tarixli*
*01-1/127A nömrəliyə*

Azərbaycan Respublikasının Auditorlar Palatasının 25-ci ildönümü münasibətilə Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini - Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri cənab Rövşən Nəcəfin təbrik mətni məktubun əlavəsində təqdim olunur.

Qoşma: 1 vərəq, 1 nüsxə

**Nəzarət departamentinin direktoru** **Elçin Əhmədov**

**Azərbaycan Respublikası Auditorlar Palatasının**

**25-ci ildönümü münasibəti ilə**

**TƏBRİK**

**Hörmətli Vahid müəllim,**

Ölkəmizdə şəffaflığın əsas təminatçısı olan qurumlardan biri - Auditorlar Palatasının 25-ci ildönümü münasibətilə Sizi və bütün əməkdaşlarınızı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin kollektivi və öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Ulu öndər Heydər Əliyevin birbaşa göstərişi ilə əsası qoyulmuş qurumunuz yarandığı vaxtdan bu günədək qət etdiyi 25 illik şərəfli yolda ölkəmizdə maliyyə nəzarətinin həyata keçirilməsi, bazar infrastrukturunun inkişafı, iqtisadi potensialının artması istiqamətində əhəmiyyətli işlər görmüşdür. Bu gün audit xidmətinin müasir beynəlxalq standartlara cavab verməsi, iqtisadiyyatın və regionların inkişafı sahəsində genişmiqyaslı proqramların həyata keçirilməsi, şübhəsiz ki, cənab Prezident İlham Əliyevin düşünülmüş siyasətinin və bu sahəyə göstərdiyi diqqətin nəticəsidir.

Rəhbərlik etdiyiniz Palatanın auditor peşəsini təbliğ etmək üçün gördüyü böyük işlərə, xarici ölkələrin audit və mühasibat təşkilatları ilə səmərəli əməkdaşlığa, yeni dövrün çağırışlarına cavab verən aktual layihələrə görə Sizi təqdir edirik. İnanırıq ki, Palata səmərəli fəaliyyəti ilə ölkəmizdə müstəqil auditin inkişaf və tərəqqisinə, şəffaflığın təmin edilməsinə və daha da artırılmasına, habelə cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə öz töhfəsini verəcəkdir.

Bu yubiley münasibətilə bir daha təbrik edir, Vətən müharibəsində qazanılmış parlaq qələbədən sonra yaranmış yeni strateji imkanlarla audit sisteminin təsirliliyinin artırılması və beynəlxalq aləmə inteqrasiyasının gücləndirilməsinə yönəlmiş fəaliyyətinizdə davamlı müvəffəqiyyətlər diləyirəm.

**Hörmətlə,**

**Azərbaycan Respublikası**

**İqtisadiyyat nazirinin müavini –**

**Maliyyə Monitorinqi Xidmətinin**

**İdarə Heyətinin sədri** **Rövşən Nəcəf**